**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№381/3** **03 noyabr 2025-ci il**

**“Haqsız rəqabətə qarşı mübarizə sahəsində xarici təcrübənin öyrənilməsi və tətbiqi üzrə müvafiq təkliflərin reallaşdırılmasına dair Tədbirlər Planı”nın təsdiq edilməsi barədə**

“Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasının (2021-2030-cu illər)” 5.6-cı “Auditor fəaliyyətində şəffaflığın artırılması, dempinq, haqsız rəqabət və korrupsiyaya qarşı mübarizə” bölməsinin və Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 6.2-ci “Haqsız rəqabətə qarşı mübarizə sahəsində xarici təcrübənin öyrənilməsi və tətbiqi üzrə müvafiq təkliflərin hazırlanması” bəndinin icrasını təmin etmək məqsədilə Haqsız rəqabətə qarşı mübarizə idarəsi (R.Cəfərli) tərəfindən hazırlanmış Tədbirlər Planının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Haqsız rəqabətə qarşı mübarizə sahəsində xarici təcrübənin öyrənilməsi və tətbiqi üzrə müvafiq təkliflərin reallaşdırılmasına dair Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatasının məsul icraçılarına (Q.Bayramov, N.Talıbov, V.Cavadov, R.Cəfərli, E.Hacıyeva, Z.Almazov, M.Hüseynova, A.Bayramova) tapşırılsın və Palatanın Şurası yanında komitələrə və komissiyaya (İ.Süleyman, V.Talıbov, K.Hüseynov) tövsiyə edilsin ki, Tədbirlər Planında nəzərdə tutulan işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etsinlər.
3. Auditorlar Palatasının Aparatının rəhbəri Q.Bayramova tapşırılsın ki, Tədbirlər Planının 1-ci, 2-ci, 3-cü və 4-cü bəndlərinin Auditorlar Palatasının 2026-cı il üzrə iş planının layəsinə daxil olunması təmin edilsin.
4. Bu qərarın və Tədbirlər Planının mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**